# ADA 2018 Təhsil Konfransı:
# " Təhsilin İnkişafının Strategiyalaşdırılması: Müzakirələr və İrəli Baxış"

## KÖNÜLLÜLƏR ÜÇÜN ÇAĞIRIŞ

*ADA 2018 Təhsil Konfransı* - *"Təhsilin İnkişafının Strategiyalaşdırılması: Müzakirələr və İrəli Baxış"* 2018-ci il iyunun 7-8-ində ADA Universitetində baş tutacaq. Konfransın hədəflərimizə uyğun və uğurlu şəkildə keçməsi üçün ADA Universitetinin təhsilin idarə olunması fakültəsi konfrans günü və ondan öncəki günlər ərzində təşkilati işlərə kömək məqsədilə könüllülər axtarışındadır.

Könüllülük əsl iş mühiti ilə tanış olmaq, təşkilatların necə idarə edildiyini əyani görmək və yeni insanlarla tanış olmaq üçün böyük şansdır. Əgər siz karyeranızı irəli aparmaq, peşəkarlarla şəbəkə yaratmaq və liderlik bacarıqlarınızı gücləndirməkdə maraqlısınızsa, bu sizin üçün yaxşı imkandır. Biz ADA 2018 Təhsil Konfransına töhfə vermək istəyən hər kəsi könüllü olmağa çağırırıq. Seçimdə üstünlük təhsillə əlaqəli sahələrdə təhsil alan və könüllülük təcrübəsi olan namizədlərə veriləcək.

Könüllülər Konfrans komandasını verilən tapşırıqlar zamanı dəstəkləyəcəklər:

- Qeydiyyat bağlamalarını hazırlamaq (konfrans qovluqları/çantalar və iştirakçıların kimliyi qeyd olunan etiketlər);
- Qeydiyyat masasını hazırlamaq və idarə etmək. Konfrans materiallarını giriş masasına ötürmək;
- Məlumat bukletlərinin paylanmasında dəstək;
- Konfransın saytının dizaynında dəstək (İT tələbələri arzuolunandır),
- Müvafiq sənədləri tərcümə etmək;
- Konfrans zalını müşahidə etmək və audio-vizual cihazların quraşdırılmasına kömək etmək;
- Sosial tədbirlərin təşkilinə kömək etmək (şəbəkə tədbiri, qəhvə fasilələri);
- Konfrans iştirakçılarına (qonaqlar, təqdimatçılar və əsas çıxışçılar) konfrans məkanına qədər bələdçilik etmək və suallarına cavab vermək;
- Digər tələb olunan tapşırıqlar.

Maraqlanan namizədlər aşağıdakı linkdəki qeydiyyat formunu doldurmalıdırlar:
https://docs.google.com/forms/d/1zoKJQ9pMfsv4Pv1MAiWPB7KPVwWuF3r3WPez6BxzXy8/edit

Əlavə suallar üçün sel@ada.edu.az adresində Natella Tarverdiyeva ilə əlaqə saxlayın.